QƏBƏLƏ
ARXEOLOJI EKSPEDISIYASI:
HESABATLAR, TAPINTILAR

THE GABALA
ARCHAEOLOGICAL EXPEDITION:
REPORTS, FINDINGS



2015-2016

QƏBƏLƏ ARXEOLOJİ EKSPEDİSİYASI: HESABATLAR, TAPINTILAR

2015-2016

THE GABALA ARCHAEOLOGICAL EXPEDITION: REPORTS, FINDINGS

SEBA

Bakı - CBS - 2017

MÜNDƏRİCAT

Ruhəngiz Heydərova
Ön söz......17
Qəbələ haqqında məlumat 20

HESABATLAR
2015

Yi Seonbok, Kim Jongil, Kwon Ohyoung, Seong Jeongyong, Jaehyun Son
2015-ci ildə Qəbələdə Dizaxlı kurqanında aparılmış qazıntıların qısa hesabatı.....30
• Qazıntının müddəti.....31
• Ekspedisiyanın tərkibi.....31
• Maliyyə mənbəyi.....33
• Tədqiqat obyekti.....33
• 2015-ci il tədqiqatlarının nəticəsi 33
• 3D skan etmə və konservasiya işləri 38
• Növbəti tədqiqatların planı.....38
• Tapıntılar saxlanılır.....39

İlyas Babayev, İradə M.Nəcəfova, Bədircahan Məmmədova, Ülviyyə Heydərova, Laçın Mustafayev
2015-cü ildə Qəbələnin Antik ərazisində aparılmış arxeoloji tədqiqatların qısa hesabatı *46*
• Qazıntının müddəti *47*
• Qazıntı ərazisi.....47
• Ekspedisiyanın tərkibi.....47
• Maliyyə mənbəyi.....48
• 2015-ci ildə aparılan araşdırmalar.....48
• III qazıntı sahəsi.....48
• IV qazıntı sahəsi.....49
• V qazıntı sahəsi.....50
• Tapıntılar saxlanılır.....51
• Dizaxlı kəndində kurqan qazıntıları barədə.....54

SEBA

Ceyhun Eminli, Emil İskəndərov, Samir Şirəliyev
2015-ci ildə Qəbələdə aparılmış arxeoloji qazıntıların hesabatı (Səlbir ərazisinin V qazıntı sahəsi, Çuxur Qəbələ və Soltannuxa kəndləri ərazisi) *64*
- Qazıntının müddəti..... 65
- Ekspedisiyanın tərkibi..... 65
- Maliyyə mənbəyi..... 65
- Tədqiqat obyekti..... 65
- Səlbir yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar..... 65
- V qazıntı sahəsi. KV.9..... 66
- V qazıntı sahəsi. KV.11..... 67
- V qazıntı sahəsi. KV.12..... 69
- V qazıntı sahəsi. KV.13..... 70
- Kamaltəpədə aparılmış arxeoloji tədqiqatlar..... 71
- 1 saylı küp qəbir..... 71
- 2 saylı küp qəbir..... 72
- 3 saylı küp qəbir..... 72
- Solmadaş ərazisindəki qəbir..... 73
- İçəri yer adlı sahədə arxeoloji kəşfiyyat işləri..... 74
- Soltannuxada aparılan arxeoloji tədqiqatlar..... 76
- Tapıntılar saxlanılır..... 77

2016

İlyas Babayev, İradə M. Nəcəfova
2016-cı ildə Qəbələdə aparılan arxeoloji tədqiqatlar haqqında. 102
- Giriş..... 103
- Dizaxlıdakı ilkin kurqan tədqiqatları barədə..... 103
- Dizaxlıdakı yeni kurqan tədqiqatları barədə..... 104
- Antik ərazi..... 106
- Son qeyd..... 107

Yi Seonbok, Kwon Ohyoung, Seong Jeongyong, Kim Jongil, Oh Jaejin, Yu Byungrok, Kim Euijung, Sim Hyonchol, Choi Youngjun, Son Jaehyun, Park Junyoung
2014-2016-cı illərdə Qəbələdə Dizaxlı kurqanında aparılmış arxeoloji qazıntılar barədə ümumi hesabat..... 118
- Giriş..... 119
- Tədqiqat planı və nəticələr..... 120

SEBA

• I mərhələ....123
• II mərhələ....125
• III mərhələ....131
• IV mərhələ....133
• V mərhələ....134
• VI mərhələ....135
• VII mərhələ....135
• VIII mərhələ....137
• IX mərhələ....139
• Nəticə....140

Yi Seonbok, Kwon Ohyoung, Kim Jongil, Kim Euijung, Son Jaehyun, Song Hoin
2016-cı ildə Səlbir ərazisinin şimal darvazası sahəsində aparılmış tədqiqatların qısa hesabatı *....150*

Ceyhun Eminli, Emil İskəndərov
2016-ci ildə Qəbələdə aparılmış arxeoloji qazıntıların hesabatı (Səlbir ərazisinin III qazıntı sahəsi, Quşlar kəndi ərazisində Antik dövr qəbirlərinin tədqiqi) *....156*
• Qazıntının müddəti 157
• Ekspedisiyanın tərkibi....157
• Maliyyə mənbəyi....157
• Tədqiqat obyekti....157
• Səlbir yaşayış yerində arxeoloji tədqiqatlar....157
• Quşlar kəndində arxeoloji tədqiqatlar (2016-cı il)....158
• Qəbir N.1....159
• Qəbir N.2 (küp qəbir)....159
• Qəbir N.3....159
• Qəbir N.4....160
• Tapıntılar saxlanılır....162

Qafar Cəbiyev, Elmira Abbasova, Əfqan Qasımzadə
2016-cı ildə Qəbələnin Qala əarzisində aparılmış arxeoloji tədqiqatların hesabatı *....172*
• Qazıntının müddəti 173
• Qazıntı ərazisi....173
• Ekspedisiyanın tərkibi....173
• Maliyyə mənbəyi....173

SEBA

• Üst təbəqənin ilkin tapıntıları.....174
• Tikinti qalıqları.....175
• Döşəmə qalıqları.....176
• Ocaq yerləri.....176
• Quyular.....177
• Saxsı məmulatı.....179
• Şirsiz saxsı qab nümunələri.....179
• Silbiclər.....180
• Çıraqlar.....181
• Zoomorf gil fiqur.....182
• Tikinti materialları.....182
• Şirli saxsı qab nümunələri.....182
• Şirli saxsı kasanın kiçik fraqmenti.....183
• Daş məmulatı.....184
• Metal məmulatı.....184
• Şüşə məmulatı.....185
• Sümük məmulatı.....185
• Bəzək əşyaları.....185
• Mis sikkə nümunəsi.....185
• Tapıntılar saxlanılır.....186

TAPINTILAR
2015

• Dizaxlı kurqanı (e.ə. III minillik).....200
• Səlbir ərazisi (I-XI əsrlər).....211
• Antik ərazi (e.ə. II minilliyin sonu - b.e. I əsri).....213
• Səlbir ərazisinin V qazıntı sahəsi, Çuxur Qəbələ (Kamaltəpə – III-IV əsrlər, Solmadaş – VII-VIII əsrlər, İçəri yer – e.ə. III-b.e. XII əsri) və Soltannuxa (e.ə.I-b.e. XVIII əsri) kəndləri ərazisi.....224

2016

• Dizaxlı kurqanı (e.ə. III minillik).....248
• Qala ərazisi (I-XVIII əsrlər).....270

SEBA

CONTENTS

Ruhangiz Heydarova
Preface.....17
Information on Gabala.....20

REPORTS
2015

Yi Seonbok, Kim Jongil, Kwon Ohyoung, Seong Jeongyong, Jaehyeon Sohn
Brief excavation report on Dizakhli kurgan, Gabala in 2015.....30
- Excavation period.....31
- Expedition members.....31
- Financial support.....33
- Investigation object 33
- Result of 2015 surveys.....33
- 3D scanning and conservation work.....38
- Plan for further investigations.....38
- Submission of the finds.....39

Ilyas Babayev, Irada M.Najafova, Badirjahan Mammadova, Ulviyya Heydarova, Lachin Mustafayev
Brief report on the archaeological investigations at the Ancient site, Gabala in 2015.....46
- Excavation period.....47
- Location.....47
- Expedition members.....47
- Financial support.....48
- Excavations of 2015.....48
- The third excavation site.....48
- The fourth excavation site.....49
- The fifth excavation site.....50
- Submission of the finds.....51
- Kurgan excavations in the village of Dizakhli.....51

SEBA

Jeyhun Eminli, Emil Iskandarov, Samir Shiraliyev
Report on the archaeological investigations in Gabala in 2015 (The fifth excavation area of the Selbir site, the territories of the villages of Chukhur Gabala and Soltannukha).....64
- Excavation period.....65
- Expedition members.....65
- Financial support.....65
- Investigation object.....65
- Archaeological investigations at the Selbir settlement.....65
- The 5th excavation site. Square 9.....66
- The 5th excavation site. Square 11.....67
- The 5th excavation site. Square 12.....69
- The 5th excavation site. Square 13.....70
- Archaeological investigations in Kamaltepe.....71
- Jar coffin no.1 71
- Jar coffin no.2 72
- Jar coffin no.3 72
- Burial in the Solmadash area.....73
- Archaeological exploration work in the area of Ichari yer.....74
- Archaeological investigations in Soltannukha.....76
- Submission of the finds.....77

2016

Ilyas Babayev, Irada M.Najafova
Archaeological investigations in Gabala in 2016.....102
- Introduction.....103
- Early kurgan investigations in Dizakhli.....103
- New kurgan investigations in Dizakhli.....104
- The Ancient site.....106
- Final notes.....107

Yi Seonbok, Kwon Ohyoung, Seong Jeongyong, Kim Jongil, Oh Jaejin, Yu Byungrok, Kim Euijung, Sim Hyonchol, Choi Youngjun, Son Jaehyun, Park Junyoung
General report on archaeological investigations in Dizakhli kurgan, Gabala in 2014-2016........118
- Introduction.....119
- Survey outline and results.....120

SEBA

• Stage 1.....123
• Stage 2.....125
• Stage 3.....131
• Stage 4.....133
• Stage 5.....134
• Stage 6.....135
• Stage 7.....135
• Stage 8.....137
• Stage 9.....139
• Conclusion.....140

Yi Seonbok, Kwon Ohyoung, Kim Jongil, Kim Euijung, Son Jaehyun, Song Hoin
A brief report on 'North Gate' area in Salbir site in 2016 150

Jeyhun Eminli, Emil Iskandarov
Report on the archaeological investigations in Gabala in 2016 (The 3rd excavation area of the Selbır site, investigation of the Ancient burials in the village of Gushlar) 156
• Excavation period.....157
• Expedition members.....157
• Financial support.....157
• Investigation object.....157
• Archaeological investigations at the Selbir settlement.....157
• Archaeological investigations in the village of Gushlar (2016).....158
• No.1 burial.....159
• No.2 burial (jar coffin) 159
• No.3 burial 159
• No.4 burial.....160
• Submission of the finds.....162

Gafar Jabiyev, Elmira Abbasova, Afgan Gasimzade
Report on the archaeological investigations at Gala, Gabala in 2016 172
• Excavation period.....173
•Location.....173
• Expedition members.....173
• Financial support.....173
• Findings from the upper layer.....174
• Construction remains.....175

SEBA

• Floor remains……176
• Kiln areas……176
• Pits……177
• Pottery……179
• Unglazed clay dishes……179
• Pots……180
• Lamps……181
• Zoomorphical clay statuette……182
• Construction materials……182
• Glazed clay dishes……182
• A small fragment of a glazed bowl……183
• Stone products……184
• Metal products……184
• Glass products……185
• Bone products……185
• Adornments……185
• Copper coins……185
• Submission of the finds……186

FINDINGS
2015

• The Dizakhli kurgan (3rd century BC)……200
• The Selbir Site (1st-11th centuries)……211
• The Ancient Site (late 2nd millennium BC-1st century AD)……213
• The Salbir Site, 5th excavation area, the areas of the villages of Chukhur Gabala (Kamaltepe – 3rd-4th centuries, Solmadash – 7th-8th centuries, Ichari yer – 3rd century BC-12th century AD) and Soltannukha (1st century BC-18th century AD)……224

2016

• The Dizakhli kurgan (3rd century BC)……248
• The Gala Site (1st-18th centuries)……270

SEBA









İlyas Babayev, İradə M.Nəcəfova, Bədircahan Məmmədova,
Ülviyyə Heydərova, Laçın Mustafayev

2015 - Cİ İLDƏ QƏBƏLƏNİN ANTİK ƏRAZİSİNDƏ APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLARIN QISA HESABATI

Ilyas Babayev, Irada M.Najafova, Badirjahan Mammadova,
Ulviyya Heydarova, Lachin Mustafayev

BRIEF REPORT ON THE ARCHAEOLOGICAL INVESTIGATIONS AT THE ANCIENT SITE, GABALA IN 2015

QAZINTI MÜDDƏTİ

2015-ci ildə ekspedisiya tarixi Qəbələnin Antik şəhər ərazisində iyun ayının 11-dən iyul ayının 31-nə qədər çöl-tədqiqat işləri aparmışdır.

QAZINTI ƏRAZİSİ

Antik ərazi (və ya "Antik şəhər yeri", "Güllütala" və s.) tarixi Qəbələ şəhərinin ilk ərazisi idi. Qaraçay və Qoçalan çayları arasında yerləşən yüksəklikdə salınan bu şəhər indiki rayon mərkəzindən – müasir Qəbələ şəhərindən 20 km cənub-qərbdə, Çuxur Qəbələ və Tövlə kəndlərinin yaxınlığında yerləşir.

Qəbələnin bu erkən şəhər yerində əvvəlki illərdə bir neçə sahədə aparılan arxeoloji tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, burada hələ Son Tunc - İlk Dəmir dövründə (e.ə. II minilliyin son əsrlərində) yaşayış yeri olmuşdur. Bu yaşayış yeri fasiləsiz inkişaf edərək e.ə. I minilliyin ortalarında daha geniş ərazini əhatə edib böyük şəhərə çevrilmişdir. Həmin şəhər e.ə. IV əsrdən indiki Azərbaycan Respublikasının ərazisində yaranan qədim dövlətlərdən biri – Qafqaz Albaniyasının paytaxtı olmuşdur.

1967-1990, 2005-2014-cü illərdə Antik ərazinin 50 hektardan çox sahəsində aparılan arxeoloji araşdırmalar əsasında Azərbaycan tarixinin bir sıra mühüm problemlərini əsaslı şəkildə öyrənmək mümkün olmuşdur.

Beləliklə, 2015-ci ildə də qazıntı işləri Qəbələnin bu ən qədim şəhər yerində davam etdirilmişdir.

EKSPEDİSİYANIN TƏRKİBİ

2015-ci ildə ekspedisiya aşağıdakı tərkibdə fəaliyyət göstərmişdir:

1. İlyas Babayev – ekspedisiya rəisi, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor

EXCAVATION PERIOD

The expedition continued archaeological researches in the Ancient city site of the historical Gabala from 11 June to 31 July in 2015.

LOCATION

The Ancient site (Ancient city site or Gullutala) was the first area of the historical Gabala. The city, founded in the hill between the rivers Garachay and Gochalanchay, is located 20 km southwest of the modern Gabala city, nearby the villages of Chukhur Gabala and Tovle.

As a result of the previous archaeological investigations in this early city site, it became certain that there had existed a dwelling in the Late Bronze-Early Iron Ages (last centuries of the 2nd millennium BC). That dwelling developed continuously and became a great city, covering a wider area in the mid-1st millennium BC. From the 4th century, the city was the capital of one of the ancient states – Caucasian Albania, established in the present area of the Azerbaijan Republic.

It became possible to solve some urgent problems of the Azerbaijan history on the basis of the archaeological investigations, carried out in more than 50 ha areas of the Ancient site, in 1967-1990 and in 2005-2014.

So, in 2015, excavations were continued in this ancient site of Gabala.

EXPEDITION MEMBERS

The expedition consisted of the following members:

1. Ilyas Babayev – expedition leader, corresponding member of ANAS, Doctor of History, Professor

SEBA

2. İradə M.Nəcəfova – ap.e.i., t.e.n./SEB
3. Bədircahan Məmmədova – e.i.
4. Laçın Mustafayev – k.e.i.
5. Ülviyyə Heydərova – dissertant
6. Məhəmməd Əhmədov – memar/Qəbələ Dövlət Tarix-Bədii Qoruğu

MALİYYƏ MƏNBƏYİ

Hesabat ilində qazıntı və digər arxeoloji tədqiqat işləri SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının maliyyə dəstəyi ilə aparılmışdır. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu isə yalnız 4 nəfər ekspedisiya üzvlərinin ezamiyyə xərclərini ödəmişdir.

2015-Cİ İLDƏ APARILAN ARAŞDIRMALAR

III qazıntı sahəsi

SEBA Assosiasiyasının maliyyə dəstəyi ilə Antik şəhər yerinin III qazıntı sahənin üst təbəqəsində yerləşən e.ə. I - b.e. I əsrlərinə aid oval planlı böyük ictimai bina qalıqlarının konservasiyası (üstünün örtülməsi) işləri aparılmışdır. Ona görə də biz bu il abidənin üstündə ancaq kiçik təmizlik işləri aparmışıq (şək.1, 2).

Uzunluğu 74 m, eni isə 23 m olan, birinci adlanan oval binanın şərq tərəfdə yerləşən ön divarında iki, arxa tərəfində bir qapısı olmuşdur. Binanın uzununa orta hissəsində 11 sütunu, içəridə bütün divar boyu 2,2 m enində çaydaşları düzümündən ibarət alçaq səkisi olmuşdur. Binanın şərq qapılarından birinin yanında divarda nəzarətçinin dayanması üçün 0,8 m x 0,8 m ölçülərində kəsik vardır. Demək olar ki, binanın təkcə səkisinin üstündə eyni zamanda 600-700 nəfər otura bilərdi. Görünür, bu binada böyük tamaşalar, dövlət əhəmiyyətli yığıncaqlar, dini mərasimlər keçirilmişdir.

2. Irada M.Najafova – leading researcher, PhD/SEBA
3. Badirjahan Mammadova – researcher
4. Lachin Mustafayev – junior researcher
5. Ulviyya Heydarova – candidate for a degree
6. Mahammad Ahmadov – architect/Gabala State Historical-Artistic Preserve

FINANCIAL SUPPORT

Archaeological expeditions were carried out by the financial support of SEBA (Seoul-Baku) Azerbaijan-Korean Cultural Exchange Association. The ANAS Institute of Archaeology and Ethnography defrayed only the expenses for the travel of four members.

EXPEDITIONS OF 2015

The third excavation site

Conservation of the remains of the big oval public building, dating back to the 1st century BC-1st century AD, located on the upper layer of the third excavation area of the Ancient city site, was carried out by the support of SEBA Association. Thus, only the surface of the building was a bit cleaned this year (fig.1, 2).

This oval building was 74 m long and 23 m wide. It had two doors on the front wall, located in the east, and one on the backside. The building had 11 columns lengthwise in the middle part, a low 2,2 m-wide pavement of pebbles throughout the entire wall inside. Next to one of the eastern walls of the building, there is a cut off with 0,8 m x 0,8 m for a warden to stand. Almost 600-700 people could seat on the pavement at the same time. Performances, meetings of national importance, religious ceremonies were supposed to be held in this building.

IV qazıntı sahəsi

Son bir neçə il ərzində IV qazıntı sahəsində aparılan qazıntılar nəticəsində alt təbəqədə e.ə. II minilliyin sonu - I minilliyin ortalarına aid müxtəlif qalıqlar aşkar edilmişdir. Onların əsasında məlum olmuşdur ki, göstərilən dövrlərdə burada böyük yaşayış yeri yerləşmiş, bu yaşayış yeri fasiləsiz inkişaf edərək e.ə. I minilliyin ortalarında artıq böyük şəhərə çevrilmişdir.

2015-ci ildə Antik şəhər yerində əsas işlər IV qazıntı sahəsində aparılmışdır (şək.3). Burada e.ə. II minilliyin son əsrləri - I minilliyin I yarısına aid təbəqələrdə həmin dövr üçün səciyyəvi olan bəzi maddi mədəniyyət qalıqları aşkar olunub. Onlar daş toxalar (şək.4), müxtəlif tipli gil qablar (şək.5), alət istehsalı üçün istifadə edilən obsidian qəlpələri, xüsusilə boğazlarına qədər yerə basdırılan təsərrüfat küpləri (şək.6, 7, 8, 9) və taxıl saxlamaq üçün istifadə olunan çoxsaylı quyulardan ibarətdir (şək.10, 11).

Bu il daxil olmaqla IV qazıntı sahəsində nizamlı sıralarla qazılan 200-ə yaxın taxıl saxlamaq üçün istifadə olunan quyular aşkar edilmişdir. Bu quyuların bəziləri e.ə. I minilliyin ortalarına aiddir. Onlardan böyük əksəriyyəti isə daha əvvəlki dövrlərə, Son Tunc-İlk Dəmir dövrünə aiddir. Bu quyu sıraları hələ qazılmayan sahələrə də doğru davam edir (şək.12, 13).

Bu quyuların bir çoxunun diametri 2 m, bəzilərinin 2 m-dən də çoxdur. Sıralarla qazılan quyuların diametrində və dərinliklərində böyük fərq yoxdur. Bəzi sıralarda quyuların diametri 1 m və təxminən 1,5 m-dir. Bir çox quyular 2 m dərinliyinə qədər izlənir.

Fikrimizcə, bu quyularda onlarla ton taxıl saxlanıla bilərdi. Əlbəttə ki, bu qədər taxıl ehtiyatının olması sinifli cəmiyyət və şəhər tipli yaşayış yeri üçün səciyyəvi olmaqla ictimai

The fourth excavation site

Various remains, dating back to the 2nd millennium - mid-1st millennium BC, were revealed during the excavations, carried out in the fourth excavation site recent years. On the basis of these findings, the existence of a large dwelling became obvious. This dwelling developed incessantly and turned into a big city in the mid-1st millennium BC.

In 2015, main work in the Ancient city site was implemented at the fourth excavation area (fig.3). Remains of material culture, dating back to the last centuries of the 2nd millennium - first half of the 1st millennium BC, were unearthed at the strata of that period. They were stone mattocks (fig.4), various clay dishes (fig.5), obsidian splinters used for making tools, household pitchers buried up to their necks (figs.6, 7, 8, 9) and numerous wheat pits (figs.10, 11).

Including this year, about 200 wheat pits drilled on a regular sequence, were revealed in four excavation areas. Some of these pits date back to the mid-1st millennium BC, whereas most of them date back to earlier periods – Late Bronze-Early Iron Ages. This pit rows also extend towards unexcavated areas (figs.12, 13).

The diametres of most pits are 2 m, some of them are more than 2 m. There is no big difference in diametre and depth of the pits. In some rows the diametres of the pits are 1 m and about 1.5 m. Most pits are 2 m deep.

Dozen tons of grain could be stored in these pits. Having such stock of grain was very important for class society and urban-like habitation. Detection of such remains in Gabala is of great scientific importance. So many wheat pits, dating back to the Early Iron Age, have never been revealed so far. These findings can be con-

əhəmiyyət daşımalıdır. Qəbələdə belə qalıqların aşkar edilməsinin böyük elmi əhəmiyyəti vardır. İndiyə kimi Azərbaycanda İlk Dəmir dövrünə aid bu qədər taxıl quyuları aşkar edilməmişdir. Bu tapıntılar Azərbaycan tarixinin qədim dövrünün sosial-iqtisadi vəziyyətinin vacib göstəricisi sayıla bilər. Görünür, tariximizin o dövrünə aid bir sıra mühüm problemlərini yenidən nəzərdən keçirmək lazım gələcək.

IV qazıntı sahəsinin alt təbəqəsindəki dəyərli tapıntıların bir növü də çiy kərpic və çaydaşından olan müxtəlif tikinti qalıqlarıdan ibarət idi (şək. 14, 15, 16, 17).

Qazıntı mövsümünün axırında da bəzi maraqlı tapıntılar aşkar olunmuşdur (şək.18). Qazıntısı başa çatmayan tikinti qalıqarının üstü sellofanla və torpaq qatı ilə örtülmüşdür (şək.19).

Ümumiyyətlə, bu yeni tapıntılar Qəbələ şəhərinin yaranması dövrünü daha da qədimləşdirdi. Şəhər yerinin cənub hissəsində I və II sahələrdə apardığımız əvvəlki çoxillik qazıntılar əsasında burada şəhərin e.ə. IV əsrdə salındığını demək olurdu. Belə ki, orada ən alt təbəqə həmin dövrə aid olub şəhər mədəniyyəti üçün səciyyəvi idi. Şəhər yerinin şimal hissəsində III və IV sahələrindəki qazıntılar isə göstərdi ki, burada daha qədim yaşayış yeri olmuş, bu yaşayış yeri I minilliyin ortalarında şəhərə çevrilərək daha geniş ərazini əhatə etmişdir.

V qazıntı sahəsi

1967-1983-cü illərdə I və II qazıntı sahələrində ictimai binaların qalıqları ilə yanaşı çoxlu gil bullalar, e.ə. III - I əsrlərə aid yerli və xarici pullar, müxtəlif əşyalar və s. tapılmışdır. Bu tapıntılar o zaman Qəbələdə öz dövrü üçün yüksək şəhər mədəniyyətinin olduğunu və bu şəhərin bir çox ölkələrlə ticarət əlaqələri saxladığını göstərir. Tapıntılar eyni zamanda göstərir ki,

sidered as important features of the socio-economic situation of the ancient Azerbaijani history. Some problems related with that period of our history need to be looked over again.

There were building remains of raw bricks and pebbles among the findings revealed at the bottom layer of the fourth excavation site (figs.14, 15, 16, 17).

Some interesting finds were detected at the end of the excavation season (fig.18). The building remains, the excavations of which were unaccomplished, were covered with soil layer and cellophane (fig.19).

Generally, these finds made the period of the establishment of Gabala city more ancient. According to the previous excavations, carried out in the first and second areas of the city site, it could be dated back to the 4th century BC, because the bottom layer there dated back to the 4th century BC and was typical of urban culture. The excavations, carried out in the third and fourth excavation areas of the city site, showed there existed a more ancient dwelling, and in the mid-1st millennium BC, it became a city covering a wider area.

The fifth excavation site

In 1967-1983, along with the public building remains, a lot of clay bullae, local and foreign coins dating back to the 3rd-1st centuries BC, various objects were revealed at the first and second excavation sites. These finds show that Gabala had urban culture typical of that period and had trade relations with many countries. The finds are evidences of trade-related constructions in

şəhərin bu hissəsində e.ə. III - I əsrlərdə ticarətlə əlaqədar tikililər olmuşdur.

Buna görə də, əvvəlki I və II qazıntı sahələri arasında kiçik təpəcik şəkilində seçilən V sahədə qazıntı aparmağı nəzərdə tutmuşuq. Orada da Ellinizm dövrünə aid ticarətlə əlaqədar tikililərin və digər tapıntıların olacağını gözləmək olar.

2015-ci ildə V sahədə 700 m^2 (20m x 35m) olan ərazidə qazıntılara başlanıldı. Bu il bu sahədə yalnız 25-30 sm qalınlığında üst təbəqə götürülmüş, sahəni dağıntılardan qorumaq üçün qoruyucu lövhə vurulmuşdur (şək. 20, 21).

TAPINTILAR SAXLANILIR

Qazıntı işləri bitdikdən sonra əldə olunan tapıntılar Qəbələ Dövlət Tarix-Bədii Qoruğuna təhvil verilmişdir.

Qeyd: Tapıntılar barədə ətraflı məlumat ilə bu nəşrin "Tapıntılar" bölməsində tanış olmaq olar.

DİZAXLI KƏNDİNDƏ KURQAN QAZINTILARI BARƏDƏ

2014-cü ildə Koreya Respublikasından olan arxeoloqlar Qəbələ ekspedisiyasının rəisi İlyas Babayevin rəhbərliyi və iştirakı ilə Qəbələ rayonu Dizaxlı kəndində, hava limanından şəhərə olan yolun sol kənarında yerləşən böyük kurqanın qazıntısına başlamışlar.

2015-ci ildə bu qazıntılar davam etdirilərkən kurqanın çay və qaya daşlarından kromlex hörgü ilə əhatə olunan mərkəzi hissəsi (şək. 22) müəyyənləşdirilmişdir. Qazıntı bir qədər də dərinləşdirildikdən sonra düzbucaqlı formasında qazılan qəbir kamerasının şimal və qərb kənarları izləndi. O hələlik tam açılmasa da, ölçülərinin təxminən 4,5 m x 4,5 m olduğu məlum oldu. Tam təmizlənməsi başa çatmayan qəbir kamerasının dərinliyi hər halda 2 m-dən çox olmuşdur.

that part of the city in the 3rd-1st centuries BC. So, we decided to carry out excavations at the fifth excavation site, seen as a small hill between the first and second excavation sites. Supposedly, trade-related constructions and other finds, dating back to the Hellenistic Period, will be revealed there.

In 2015, the excavations began at 700 m^2 area of the fifth excavation site. Only 20-30 cm-thick upper layer was unearthed and protective plate was laid to prevent destructions (figs. 20, 21).

SUBMISSION OF THE FINDS

Following the excavations, all the findings were submitted to the Gabala State Historical-Artistic Preserve.

Note: The detailed information on the finds is given in the section of Findings of this edition.

KURGAN EXCAVATIONS IN THE VILLAGE OF DIZAKHLI

In 2014, archaeologists from the Republic of Korea began the excavations of the large kurgan, located on the left side of the road from the airport to the city, in the village of Dizakhli, Gabala region, under the leadership and participation of Ilyas Babayev, leader of the Gabala expedition.

In 2015, the central part of the kurgan, enclosed by cromlech masonry of pebbles and stones, was revealed during the excavations (fig. 22). After it had been dug more deeply, the northern and western sides of the rectangular burial chamber were observed. Its dimensions were about 4.5 m x 4.5 m, though it was not uncovered fully. Anyway, the depth of the partially cleared burial chamber was more than 2 m.

Qazıntılar zamanı kurqanın üstündə son dövrlərə aid bir qəbir aşkar edilmiş, keçən əsrin 90-cı illərindən sonra kurqanın qarət edilməsinə təşəbbüs göstərilməsi müəyyən edilmişdir. Kurqanı qarət etmək istəyənlər qəbir kamerasını şimal kənarında kiçik bir sahəni qazaraq qəbir kamerasına çatmışlar (şək. 23).

Keçən əsrin 60-cı illərində həmin kənddə Saleh Qazıyevin rəhbərliyi, İlyas Babayevin və Fazil Osmanovun iştirakı ilə iki kiçikölçülü kurqan qazılaraq müəyyən olunmuşdur ki, onlar İlk Tunc dövrünə – e.ə. III minilliyin ortalarına aiddir.

Beləliklə, güman etmək olar ki, hazırda Dizaxlıda qazdığımız yeni böyük kurqan da İlk Tunc dövrünə aiddir. Qəbir kamerasında və s. aşkar ediləcək tapıntılar bu məsələni dəqiqləşdirməyə imkan verəcək.

A burial of the recent period was unearthed during the excavations. It became obvious that the kurgan had been plundered since 1990s of the last century. Those who wanted to plunder the mound reached the chamber by digging a small area in the northern edge of the chamber (fig. 23).

In 1960s, two small-sized kurgans were unearthed under the leadership of Saleh Gaziyev and participation of Ilyas Babayev and Fazil Osmanov in that village. It became clear that they dated back to the Early Bronze Age – mid-3rd millennium BC.

So, the new large kurgan in Dizakhli may also date back to the Early Bronze Age. The finds that will be detected in burial chamber will help to prove the truth.

SEBA





Şək.1, 2. Konservasiyasına başlanılan I oval planlı bina qalıqlarının üzərində təmizlik işlərinin aparılması
Figs.1, 2. Cleaning of the newly-conserved first oval building



Şək.3. IV qazıntı sahəsinin planı
Fig.3. Plan of the fourth excavation site



Şək.4. E.ə. II minilliyin sonu - I minilliyin əvvəlinə aid daş toxalar
Fig.4. Stone mattocks dating back to the late 2nd millennium - early 1st millennium BC



Şək.5. E.ə. I minilliyin əvvələrinə aid gil qab
Fig.5. Clay dish dating back to the early 1st millennium BC



Şək.6. E.ə. VI-V əsrlərə aid təsərrüfat küpü
Fig.6. Household pitcher dating back to the 6th-5th centuries BC



Şək.7. E.ə. VI-V əsrlərə aid üstü cızma xətlərlə naxışlanan küp parçası
Fig.7. Pitcher fragment patterned with scratches, dating back to the 6th-5th centuries BC





Şək.8, 9. E.ə. VI-V əsrlərə aid təsərrüfat küplərinin ağız fraqmentləri
Figs.8, 9. Lip fragments of the household pitchers dating back to the 6th-5th centuries BC



Şək.10. İlk Dəmir dövrünə aid quyunun kənarları
Fig.10. Brims of the pit dating back to the Early Iron Age



Şək.11. E.ə. I minilliyin əvvələrinə aid quyuda dən daşları
Fig.11. Grindstones in the pit dating back to the early 1st millennium BC



Şək.12. İlk Dəmir dövrünə aid taxıl quyularının izləri
Fig.12. Traces of the wheat pits dating back to the Early Iron Age



Şək.13. İlk Dəmir dövrünə aid təsərrüfat quyuları
Fig.13. Household pits dating back to the Early Iron Age



Şək.14. Çiy kərpicdən hörülmüş divarın izləri
Fig.14. Traces of the wall, built of raw bricks



Şək.15. VI-IV əsrlərə aid tikinti qalıqları
Fig.15. Building remains dating back to the 6th-4th centuries



Şək.16. E.ə. IV-III əsrlərə aid çiy kərpicdən hörülmüş divar qalığı
Fig.16. Remains of the wall, built of raw bricks, dating back to the 4th-3rd centuries BC



Şək.17. E.ə. I minilliyin I yarısına aid tikinti qalıqları
Fig.17. Building remains dating back to the first half of the 1st millennium BC



Şək.18. E.ə. IV-III əsrlərə aid mis bəzək predmetləri
Fig.18. Copper adornments dating back to the 4th-3rd centuries BC



Şək.19. Alt təbəqədə tikinti qalıqlarının müvəqqəti konservasiyası
Fig.19. Temporary conservation of the building remains in the bottom stratum



Şək.20. Qazıntısına yeni başlanılan V sahənin kənarında qoruyucu yazı
Fig.20. Protective post, put at the side of the newly-excavated fifth excavation site



Şək.21. V qazıntı sahəsinin görüntüsü
Fig.21. View of the fifth excavation site



Şək.22. Dizaxlı kurqanının mərkəzində dairəvi hörgü
Fig.22. Round masonry in the centre of the Dizakhli kurgan



Şək.23. Dizaxlı kurqanının qazıntısı. Sol tərəfdə qarətçilər tərəfindən qazılan dairəvi quyu
Fig.23. Excavation of the Dizakhli kurgan. Round pit, dug by the looters on the left side